# Azərbaycan mətbuatı yeni inkişaf mərhələsində

*"Azərbaycan mətbuatı xalqımızın ən ülvi arzularının reallaşmasına öz töhfəsini vermiş, onun müstəqillik amalının güclənməsində, mənavi dəyərlərinin tərəqqisində, milli şüurun, mədəniyyətin formalaşmasında böyük rol oynamışdır". Bu fikirləri söyləyən ulu öndər Heydər Əliyev milli mətbuatımızın inkişafına daim diqqətlə yanaşmışdır. Bu sahə hər zaman Azərbaycan Prezidenti İlham Əliyevin də diqqət mərkəzindədir. Hazırda mətbuatımız özünün yeni inkişaf mərhələsini yaşayır.*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2009-cu il aprelin 3-də imzaladığı fərmanla Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu yaradılmış, sonradan ölkədə media sahəsində islahatların dərinləşdirilməsi haqqında fərman imzalanmış və fərmana əsasən Medianın İnkişafı Agentliyi (MEDİA) formalaşmışdır. Dövlət orqanları və ictimaiyyətlə mətbuat arasında əlaqənin və etimadın möhkəmləndirilməsində Mətbuat Şurasının rolunu da xüsusi qeyd etmək lazımdır. Bu gün ölkədə nəşr olunan yüzlərlə qəzet-jurnal, o cümlədən televiziya kanalları, elektron informasiya vasitələri aktual problemlərin işıqlandırılması baxımından özünə geniş oxucu və tamaşaçı auditoriyası toplamışdır.

Yeni dövr milli mətbuatımızın inkişafı ilə bağlı qanunvericilik bazasının təkmilləşdirilməsi də zərurətə çevrilmişdi. Hazırda media məkanında sürətli qloballaşma prosesi gedir. Bu baxımdan, mövcud qanunvericiliyin təkmilləşdirilməsi də zamanın tələbi idi. Bununla əlaqədar Prezident İlham Əliyevin tapşırığı ilə media haqqında qanunvericiliyin təkmilləşdirilməsi məqsədilə "Media haqqında" yeni qanun layihəsi hazırlanmış, dövlət başçısının 2021-ci il 12 yanvar tarixli "Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi" haqqında Fərmanı ilə Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun əsasında "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi" publik hüquqi şəxs yaradılmışdır.

MEDİA agentliyinin yaradılması ölkəmizdə media sahəsində islahatların daha sürətlə aparılmasına və dərinləşdirilməsinə imkan verəcək.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2021-ci il dekabrın 30-da təsdiq etdiyi "Media haqqında" Azərbaycan Respublikasının Qanunu 2022-ci il fevralın 9-da ölkənin kütləvi informasiya vasitələrində yayımlandı. Bununla da 147 illik professional Azərbaycan jurnalistikasının fəaliyyətində rəsmi surətdə yeni dövr başlandı…

Qeyd edək ki, dövlət başçısının "Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında" 12 yanvar 2021-ci il tarixli Fərmanı ilə ölkəmizdə start götürmüş media islahatlarının ən zəruri həlqələrindən biri olaraq ötən il Media Agentliyinin sahə mütəxəssislərinin iştirakı ilə ölkə gerçəkliyi və qabaqcıl dünya təcrübəsi əsasında hazırladığı bu qanunun layihəsi jurnalist kollektivlərində, cəmiyyətin ayrı-ayrı sferalarında, nəhayət, Parlamentin komissiyalarında geniş müzakirələrdən, irəli sürülmüş mülahizə və təkliflərlə tamamlandıqdan sonra ilin son günlərində Milli Məclisdə qəbul olunmuşdur.

Təbii ki, "Media haqqında" yeni qanunun hazırlanması və qəbulunu zəruri edən bir sıra amillər vardır. Əvvəla, dünyanın qloballaşması, sürətlə yayılan informasiyanın aparıcı trendlərdən birinə çevrilməsi ənənəvi medianın nəzəri xarakterini və praktik fəaliyyətini əsaslı surətdə dəyişdirib yeniləşdirdiyindən bu gerçəklik kütləvi informasiya vasitələrinin fəaliyyətini nizamlayan dövlət siyasətində və hüquqi-normativ sənədlərdə də müvafiq təfsirini və təsbitini tələb edirdi. Beynəlxalq informasiya mühitinin müəyyən etdiyi prinsiplərə uyğun olaraq, media sahəsində modernləşmə, rasionallıq, qabaqcıl texnologiyaların geniş tətbiqi, aparıcı trendlərin izlənilməsi və digər mühüm şərtləri özündə birləşdirən innovativ təkamülün yaratdığı imkanlardan Azərbaycan jurnalistikasının lazımınca yararlanmasına ciddi ehtiyac duyulurdu.

**(davamı 11-ci səhifədə)**

# Azərbaycan mətbuatı yeni inkişaf mərhələsində

**(əvvəli 1-ci səhifədə)**

Bütün bunlarla yanaşı, cəmiyyətin hər bir sahəsində əks olunan köklü islahatların həyata keçirildiyi, habelə bütün dünyanı əhatə edən vahid informasiya məkanında yeniliklərin intensiv xarakter aldığı, kommunikasiya vasitələrinin sürətlə inkişaf etdiyi, mütərəqqi texnologiyaların, iş metodlarının tətbiq olunduğu çağdaş dövrdə ölkənin KİV sferasında da yeniləşmə və təkmilləşdirməyə tələbat yaranmışdı. Digər bir tərəfdən, müstəqilliyimizin bərpasından ötən 30 ildə ölkəmizdə yeni tipli demokratik jurnalistika bərqərar olsa da, kütləvi informasiya vasitələrinin müstəqilliyinin təmin edilməsi üçün yaradılan hüquqi-normativ baza yeni müddəa və əlavələrlə təkmilləşdirilsə də, 1999-cu ildə qəbul olunmuş "Kütləvi informasiya vasitələri haqqında" Qanuna 79 əlavə və dəyişiklik olunsa da, onun müasir dünyanın tələbləri baxımından əsaslı yeniləşməsinə zərurət yaranmışdı.

Beynəlxalq aləmdə medianın texnoloji bazasının sürətlə müasirləşməsi, internetin geniş yayılması dünya mediasında olduğu kimi, Azərbaycan jurnalistikasında da yeni dövrün tələblərinin təxirə salınmadan yerinə yetirilməsinə ehtiyac vardı. Əslində, elektron medianın əhatə dairəsinin genişlənməsi, "sosial media" deyilən şəbəkənin yaratdığı problemlərin aradan qaldırılması, bütövlükdə, ölkənin media potensialının yeni dövrün tələblərinə uyğunlaşdırılması bu sahədə aparılan əsaslı islahatların tərkib hissəsidir.

Bəli, bu gün media sahəsində islahatların aparılmasına böyük zərurət var. Bu, köhnə stereotiplərin aradan qaldırılması, informasiya təhlükəsizliyinin təmin olunması baxımından da əhəmiyyətə malikdir. Medianın İnkişafı Agentliyi fəaliyyətini əsasən bu istiqamətlərdə qurur. Ötən il iyunun 16-da Medianın İnkişafı Agentliyi ilə ADA Universitetinin İxtisasartırma Proqramlarının "Mediada islahatlara doğru" mövzusunda birgə keçirdiyi seminarda Agentliyin icraçı direktoru Əhməd İsmayılov "Media haqqında" qanun layihəsi: yeni imkanlar və istiqamətlər" movzusunda çıxışında bildirmişdi ki, bu sənəd media sahəsində ictimai münasibətlər sistemini tənzimləyən yeni normative-hüquqi aktın hazırlanmasını nəzərdə tutur.

Qanun layihəsinin əsas məqsədi bütün media subyektlərinin, o cümlədən yeni yaranmış onlayn media subyektlərinin də fəaliyyət və hüquqlarını müəyyən etməkdən ibarətdir.

İcraçı direktor, həmçinin media reyestrinin formalaşmasından danışarkən deyib ki, media subyektlərinin reyestri demək olar ki, əvvəllər də Azərbaycanda mövcud olmuş çap mediasının uçotunun aparılması qaydasındakı vəziyyətlə eynilik təşkil edir, yeni qanun layihəsində nəinki çap mediası, eyni zamanda




audiovizual və onlayn media subyektləri də eyni qaydada reyestrdə qeydiyyatdan keçməlidir. Qanunda bu məsələlər də əksini tapıb.

Onu da qeyd edək ki, MEDİA Agentliyi tərəfindən dünyanın qabaqcıl media təşkilatlarının və xarici ekspertlərin iştirakı ilə jurnalistlər üçün silsilə təlim və seminarlar təşkil edilir, təkcə 2021-ci il ərzində Agentlik tərəfindən həyata keçirilən təlimlərə, seminarlara və digər layihələrə 60-dan çox təlimçi və 350-dən çox media nümayəndəsi cəlb olunub. Jurnalistlərin dövlət qurumları ilə qarşılıqlı kommunikasiyasının gücləndirilməsi, əməkdaşlığın optimallaşdırılması və informasiya mübadiləsinin daha effektiv təşkili məqsədilə dövlət orqanlarının mətbuat katibləri, media qurumlarının rəhbərləri və jurnalistlər üçün seminar və təlimlər keçirilib.

Jurnalistlərin ixtisaslaşması və sahəvi jurnalistikanın inkişaf etdirilməsi məqsədilə MEDİA Agentliyi bir sıra dövlət qurumları və təşkilatlarla əməkdaşlıq edir. İki il ərzində XİN, MN, BMTM, Baş Prokurorluq, İqtisadiyyat Nazirliyi, Dövlət Gömrük Komitəsi, Azərsu ASC, İqtisadi İslahatların Təhlili Mərkəzi, TƏBİB və digər qurumlarla birgə jurnalistlər üçün təlimlər təşkil olunub.

Media işçilərinin mükafatlandırılması və peşəkarlığının artırılması məqsədilə il ərzində iki dəfə fərdi jurnalist müsabiqəsi keçirilib.

Avropa ölkələrində geniş istifadə olunan təcrübələrə əsasən yaradılacaq Media Reyestrinin formalaşdırılması, proqram təminatının hazırlanması üzərində isə iş davam etdirilir. Reyestrin Elektron Hökumət İnformasiya Sisteminə inteqrasiyası üçün tədbirlər görülür.

MEDİA Agentliyi çap mediası məhsullarının abunə və satışının təşkilinə dəstək göstərilməsi, çap mediasının onlayn formata keçidinin təmin edilməsi məqsədilə ilk dəfə olaraq müxtəlif qəzet və jurnalların elektron versiyasının yerləşdiriləcəyi "E-kiosk" platformasının yaradılması prosesini başa çatdırıb. "E-kiosk" platformasının əsas məqsədi ənənəvi medianın rəqəmsal mühitə uyğunlaşmasına və informasiya cəmiyyətinin inkişafına dəstək göstərməkdir.

Mətbuat haqqında yeni qanunun hazırlanması və qəbulu, Prezident tərəfindən təsdiq edilməsi ölkədə demokratik, azad medianın daha da inkişaf etdirilməsi ilə bağlı dövlətin siyasi iradəsini təcəssüm etdirir. Bu qanun media sahəsində hüquqi-normativ bazanın yaradılması və jurnalistlərin peşəkarlığının artırılmasını, digər mühüm məqamları özündə ehtiva edir.

Media haqqında yeni qanun Azərbaycan mediasının inkişafı üçün yeni imkan və növbəti mərhələ deməkdir.

**Zümrüd QURBANQIZI,**
**"Respublika".**

Respublika .- 2022.- 22 iyul.- S.1;11.